**Azərbaycan Texniki Universitetinin Elmi Şurasının 5 iyul 2025-ci il tarixli iclasının qərarı ilə qəbul edilmişdir (protokol № 8)**

## "ZİYA" QƏZETİ REDAKSİYASININ

## Ə S A S N A M Ə S İ

### 1.Ümumi Müddəalar:

1.01. Bu Əsasnamə Azərbaycan Texniki Universitetinin (bundan sonra – Universitet) "ZİYA" qəzeti redaksiyasının (bundan sonra – redaksiya) əsas vəzifələrini, fəaliyyət istiqamətlərini, fəaliyyətinin təşkilini, hüquqlarını və məsuliyyət əsaslarını müəyyən edir.

1.02.Redaksiya Universitetin Elmi Şurasının qərarına əsasən yaradılır və ləğv edilir.

1.03.Redaksiya öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununu və digər müvafiq qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Universitetin Nizamnaməsini və onun fəaliyyətini tənzimləyən digər normativ-hüquqi aktlarını, Universitet rektorunun əmr və sərəncamlarını, Universitet Elmi Şurasının qərarlarını və habelə bu Əsasnaməni rəhbər tutur.

1.04.Redaksiya öz vəzifələrini yerinə yetirən və hüquqlarını həyata keçirən zaman Universitetin digər struktur bölmələri, həmin bölmələrə daxil olan qurumlar və digər struktur vahidləri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.05.Redaksiya Universitetin struktur bölməsidir və vəzifə bölgüsünə görə universitetin rektoruna tabedir.

### 2.Redaksiyanın əsas vəzifələri:

Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq Redaksiyanın əsas vəzifələri aşağıdakılardan ibarətdir:

2.01. Universitetin vahid informasiya siyasətini həyata keçirmək;

2.02. Ayda bir dəfə (lazım gəldikdə, 2 dəfə və daha çox) qəzeti ənənəvi və onlayn formatında hazırlayıb nəşr etmək, yaymaq və internetdə yayımlamaq;

2.03.Qəzetdə universitetin elmi və ictimai həyatını, tədris-təlim-tərbiyə işinin müxtəlif sahələrini işıqlandırmaq;

2.04."Alimlərimiz", "Alimlərimizin uğurları", "Təcrübəli pedaqoqlarımız", "Məzunlarımız", "Nümunəvi tələbələrimiz", "Tələbələrimizin nailiyyətləri", "Tələbə sözü" və s. müxtəlif rubrikalar və janrlarda professor-müəllim və tələbələrin həyatı haqqında məqalələr hazırlamaq;

2.05. Universitetimizin nümunəvi, əlaçı, startapçı, idmançı, bir sözlə, universitet həyatında fərqlənən tələbələr (o cümlədən, Universitet və ayrı-ayrı şirkətlər tərəfindən təsis olunmuş adlı təqaüdə layiq görülən tələbələr) və yeni innovasiyalar haqqında məqalələr dərc etmək;

2.06. Alimlərimizin, eləcə də, tələbələrimizin çıxışlarını, Onların arzu, təklif və tənqidi qeydlərini müntəzəm olaraq qəzetin səhifələrində işıqlandırmaq;

2.07.Tədrisin keyfiyyətini, gənclər arasında tərbiyə işinin səviyyəsini yüksəltmək, onlarda dövlətçilik, vətənpərvərlik, dostluq, yoldaşlıq hisslərini aşılamaq, mühüm elmi problemləri şərh etmək və istiqamətləndirmək,

2.08.Nəzərə çarpan qüsurların aradan qaldırılmasında universitet rəhbərliyinə yaxından kömək göstərmək, universitetin rəngarəng həyatını, təlim-tərbiyə sahəsindəki uğurlarını, kafedralarda və laboratoriyalarda aparılan elmi-tədqiqat işlərini, istehsalat müəssisələri ilə elmi və təcrübi əlaqələri, mədəni-kütləvi tədbirləri, tələbə məişətini dolğun işıqlandırmaq;

2.09.Universitet tərəfindən həyata keçirilən işlər barədə müvafiq məlumatları qəzet vasitəsilə ictimaiyyətə çatdırmaq, bununla əlaqədar press-reliz, məlumat bülleteni, bəyanat, o cümlədən, məqalələr, müsahibə və çıxışlar hazırlamaq;

2.10. Universitet rəhbərliyinin və digər vəzifəli şəxslərinin qəzetdə, eləcə də, KİV-də çıxışlarını, mətbuat konfranslarını, brifinqlərini, media nümayəndələri ilə görüşlərini təşkil etmək;

2.11.Universitet rektorunun və digər rəhbər vəzifəli şəxslərin rəsmi və işgüzar xarakterli səfər və görüşləri haqqında məlumatları ictimaiyyətə çatdırmaq;

2.12.Universitet tədbirlərində iştirak etmək;

2.13.Universitetin fəaliyyəti ilə bağlı məlumatları müntəzəm və mütamadi olaraq qəzetdə işıqlandırmaq;

2.14.Ehtiyac olduğu hallarda rektorluğun və digər strukturların planlaşdırdığı iclas, konfrans və simpoziumlar barədə informasiyanı mətbuatda yaymaq;

2.15.Universitetin tanıtımının və nüfuzunun artırılması istiqamətində aparılan silsilə işlər barədə olan informasiyanı yaymaq;

2.16.Universitetin tədbirləri ilə bağlı ictimaiyyəti və əməkdaşları məlumatlandırmaq, bu məqsədlə xəbərlər, elanlar, bülletenlər, xüsusi buraxılışlar və s. hazırlamaq;

2.17.Universitetin fəaliyyəti ilə bağlı KİV-də yayımlanan və həqiqətə uyğun olmayan məlumatlarla bağlı zəruri hallarda cavab hazırlamaq və təhrif hallarının aradan qaldırılması üçün tədbirlər görmək;

2.18. Fəaliyyət istiqamətləri üzrə vətəndaşlardan, dövlət orqanlarından, idarə, müəssisə və təşkilatlardan daxil olan müraciətlərə və sorğulara baxılmasında qanunvericiliyə uyğun olaraq iştirak etmək;

2.19. Universitetdə aparılan islahatlar, elmi tədqiqatlar, əldə olunan nailiyyətlər, keçirilən müxtəlif səpkili tədbirlər və s. haqqında məlumatların ictimaiyyətə və KİV-ə operativ və sistemli şəkildə ötürülməsini təmin etmək;

2.20. Universitetin elmi fəaliyyətinin KİV-də kütləvi təbliği məqsədilə media nümayəndələri üçün mətbuat konfransları, "dəyirmi masa"lar, görüşlər, müsahibələr və s. təşkil etmək;

2.21. Universitetin müvafiq struktur vahidləri ilə birgə universitetin rektorunun və digər rəhbər vəzifəli şəxslərinin mətbuat konfranslarını təşkil etmək;

2.22. KİV-dən daxil olmuş informasiya sorğularının, məktubların və s. cavablandırılmasını təmin etmək.

### 3. Redaksiyanın fəaliyyət istiqamətləri:

3.01. Qəzetin bir sıra rubrikalarında universitet rektorluğunun fəaliyyəti, tədris prosesi, dərslik və dərs vəsaitlərinin vəziyyəti, laboratoriyaların, komputer mərkəzinin, elmi kitabxananın, universitet nəşriyyatının, yataqxanaların şəraiti, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzündən Universitetin tələbə yataqxanasında məskunlaşan məcburi köçkünlərin problemləri ilə bağlı məqalə və məlumatlar vermək;

3.02. Təcrübəli müəllimlərin iş üsulu, gənc alimlərin elmi fəaliyyəti, fakültə və kafedralarda görülən elmi-tədqiqat işləri, Təhsilin Avropa standartlarına uyğunlaşdırılması, Boloniya prosesinə qoşulma ilə bağlı yazıları vaxtaşırı olaraq qəzetin səhifələrində dərc etmək;

3.03. Universitetin xarici ölkələrdəki texniki ali məktəblərlə əlaqələri, müəllim və tələbə mübadilələri, Universitetdə qonaq olan alimlərin universitet kollektivi ilə görüşü, rektorun iştirak etdiyi tədbirlər haqqında qısaca da olsa imkan daxilində oxuculara məlumat vermək;

3.04. Bir sözlə, qəzetdə günün aktual məsələləri, universitetdə gedən yenidənqurma, təmir-tikinti və abadlıq işləri barədə maraqlı məqalələr, şərhlər, reportajlar, xəbərlər çap etmək;

3.05. Eləcə də, redaksiyanın nəzdində universitetin yaradıcı müəllimlərindən, tələbələrindən, həmçinin universitetin yaradıcı məzunlarından ibarət ədəbi dərnək təşkil etmək, onların şeir və hekayələrini, eləcə də, digər bədii yaradıcılıq nümunələrini müntəzəm olaraq qəzetin səhifələrində dərc etmək, həmin nümunələrin ən yaxşılarını toplayıb ayrıca kitab şəklində nəşr etdirmək;

3.06.Universitetdə yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli tədbirlərdə Universiteti və redaksiyanı təmsil etmək, onların işində iştirak etmək;
3.07.Redaksiyanın fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində Universiteti dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək, hüquq və qanuni mənafelərini müdafiə etmək;
3.08.Redaksiyanın fəaliyyət istiqamətlərinə və salahiyyətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər funksiyaları həyata keçirmək.

## 4. Redaksiyanın fəaliyyətinin təşkili:

4.01.Redaksiyanın strukturu və ştat vahidlərinin sayı Universitetin Elmi Şurası tərəfindən təsdiq edilir və Universitetin struktur tərkib hissəsi sayılır.
4.02.Redaksiyaya Universitetin rektorunun əmri ilə təyin edilən Baş redaktor rəhbərlik edir.
4.03.Baş redaktor öz fəaliyyətini Universitetin rektoru tərəfindən təsdiq olunmuş vəzifə təlimatına əsasən həyata keçirir. Rektor tərəfindən səlahiyyət verilmiş şəxs istisna olmaqla, heç kəs redaksiyanın fəaliyyətinə müdaxilə edə bilməz.
4.04.Baş redaktor redaksiyanın işini təşkil edir, işçilər arasında vəzifə bölgüsü aparır, səlahiyyətləri daxilində işçilərə fəaliyyətləri ilə əlaqədar göstərişlər verir, onların fəaliyyətinə, işlərin düzgünlüyünə, müəyyən edilmiş qaydada və müddətdə aparılmasına dair nəzarəti həyata keçirir.
4.05.Baş redaktor xidmətin illik iş planının və hesabatının tərtib edilməsini, təsdiq olunmasını və rektorluğa təqdim olunmasını təmin edir.
4.06.Redaksiyanın əməkdaşları Baş redaktorun təqdimatına əsasən Universitetin rektoru tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir.
4.07.Redaksiyada işçilər (əməkdaşlar) arasında vəzifə bölgüsü Baş redaktor tərəfindən müəyyən edilmiş vəzifə təlimatları əsasında aparılır.
4.08.Redaksiya əməkdaşlarının vəzifə və məsuliyyətləri onların vəzifə təlimatları ilə müəyyən edilir.
4.09.Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə görə birbaşa məsuliyyəti Baş redaktor daşıyır.
4.10.Redaksiya öz fəaliyyəti haqqında aylıq, rüblük və illik hesabatları rektora təqdim edir.
4.11.Baş redaktor olmadığı təqdirdə, onun səlahiyyətlərini rektorun əmri əsasında redaksiya əməkdaşlarından biri həyata keçirir.

## 5. Redaksiyanın hüquqları:

Bu Əsasnamə ilə müəyyən olunmuş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Redaksiyanın hüquqları aşağıdakılardan ibarətdir:

5.01. Universitetin digər struktur bölmələri tərəfindən Redaksiyaya təqdim olunmalı sənədlərin ilkin olaraq elektron variantda redaksiyanın elektron poçt adresinə göndərilməsini tələb etmək;

5.02. Redaksiya daxilində vəzifələrinin yerinə yetirilməsi ilə əlaqədar olaraq öz səlahiyyətləri daxilində Universitetin struktur bölmələrinə müvafiq qaydada sorğular ünvanlamaq və onlardan müvafiq məlumatları və ya sənədləri almaq;

5.03. Redaksiyanın fəaliyyət istiqamətlərinə uyğun müvafiq təcrübələri araşdırmaq və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi istiqamətində təkliflər hazırlamaq;

5.04. Redaksiyanın fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

## 6. Redaksiyanın məsuliyyət əsasları:

6.01. Əsasnamədə nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsinə görə məsuliyyəti Baş redaktor daşıyır.

6.02. Baş redaktor redaksiya əməkdaşlarının seçilməsi, yerləşirilməsi, fəaliyyəti və əmək intizamı qaydalarına riayət etməsinə görə, habelə öhdəsində olan əmlakın qorunmasının təmini və yanğın təhlükəsizliyi qaydalarına riayət edilməsinə görə məsuliyyət daşıyır.

6.03. Redaksiya qanunvericilik normalarının düzgün tətbiqi və səlahiyyətləri dairəsinə aid edilən hüquqi-təminat işlərinin vaxtında, tam formada təşkilinə və icrasına görə məsuliyyət daşıyır.

6.04. Baş redaktor və əməkdaşlar öhdəliklərinə aid olan bütün sənədlərin Azərbaycan Respublikasının qanunvericilik aktlarına və Universitetin Nizamnaməsində nəzərdə tutulmuş müddəalara uyğun formada həyata keçirilməsinə görə bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələr çərçivəsində şəxsən məsuliyyət daşıyırlar.